# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

04-05 (99-100) 10 mart 2018-ci il

İctimai-siyasi qəzet


# İnkişaf edən, güclənən, dünyanın lider ölkələri sırasında layiqli yer tutan Azərbaycanın sınaqlardan çıxmış lideri - İlham Heydər oğlu Əliyev ölkə veteranlarının layiqli namizədidir

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasını sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi İlham Əliyevə təbriklərini çatdırdı və namizədlik vəsiqəsini ona təqdim etdi.

Dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzuladı.

Seçkilərə hazırlıq işlərinin lazımi səviyyədə həyata keçirildiyini vurğulayan Məzahir Pənahov seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün bütün şəraitin yaradılması ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüquqlarının qarantı kimi Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.



## İlham Əliyev Yaponiya Baş nazirinin xarici siyasət məsələləri üzrə müşavirini qəbul edib

Prezident İlham Əliyev Yaponiya Baş nazirinin xarici siyasət məsələləri üzrə müşaviri Tomohiko Taniguçini qəbul edib.

Tomohiko Taniguçi Yaponiyanın Baş naziri Şinzo Abenin salamlarını dövlətimizin başçısına çatdırdı. Tomohiko Taniguçi Bakıda Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın nəticəsində insanların həlak olması ilə bağlı başsağlığı verdi və Yaponiyada insanların bu hadisədən dərin kədər hissi keçirdiklərini qeyd etdi. O bildirdi ki, Yaponiya Azərbaycanın İslam aləmində sabitlik, təhlükəsizlik və qarşılıqlı anlaşmada roluna xüsusi əhəmiyyət verir. Sonra Tomohiko Taniguçi Yaponiya hökuməti tərəfindən Azərbaycana təcrübəli səfirin göndərilməsini əlaqələrimizin inkişafına verilən önəm kimi dəyərləndirdi.

Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirdi. Daha sonra Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinə toxunan dövlətimizin başçısı Yaponiya hökumətinin Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk vaxtlardan başlayaraq və bu gün də davam edən dəstəyini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev, həmçinin Yaponiya bank sektorunun ölkəmizdə infrastrukturun müasirləşdirilməsi işinə göstərdiyi köməyin önəmini qeyd etdi və bildirdi ki, bu gün ölkələrimiz arasında qarşılıqlı anlaşma və tərəfdaşlıq prinsiplərinə söykənən çox yüksək səviyyədə ikitərəfli münasibətlər mövcuddur.

Dövlət başçısı Yaponiyanın Azərbaycanda təyin olunmuş səfirinin Azərbaycanın dostu olduğunu və Yaponiya hökumətinin dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələrin reallaşmasında fəal rol oynadığını bildirdi.

Görüşdə ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsi, bank sektoru, iqtisadiyyatın şaxələndirilməsi, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlət başçısı Baş nazir Şinzo Abenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Yaponiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.



## Prezident İlham Əliyev Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevi qəbul edib.

Dövlət başçısı Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevin keçən il qeyd olunan yubileyi münasibətilə təbriklərini çatdırdı və onun Azərbaycan Respublikasının yüksək ordeni olan "Dostluq" ordeni ilə təltif edildiyini vurğuladı. Prezident İlham Əliyev Məmmədəli Ağayevin 25 ildən artıqdır ki, Moskva Akademik Satira Teatrının direktoru vəzifəsində işlədiyini qeyd edərək onun Rusiyada teatr sənətinin inkişafına böyük töhfə verdiyini dedi. Moskva Akademik Satira Teatrının Rusiyanın aparıcı teatrlarından biri olduğunu qeyd edən dövlətimizin başçısı xalqımızın nümayəndəsinin uzun illər belə yüksək vəzifədə fəaliyyət göstərərək böyük hörmət qazandığını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Məmmədəli Ağayev bu günə qədər həmişə Azərbaycanla yaxından əlaqə saxlayıb və vətənindən ayrılmayıb. Məmmədəli Ağayevin Rusiya-Azərbaycan əlaqələrinin inkişafında rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, ikitərəfli münasibətlərimizin genişlənməsində mədəniyyət əlaqələri xüsusi rol oynayır. Ölkələrimizin humanitar sahədə çox uğurlu əməkdaşlıq etdiyini deyən dövlətimizin başçısı qeyd etdi ki, Məmmədəli Ağayev bütün bu işlərə fəal töhfə verir. Prezident İlham Əliyev keçən il imzaladığı Sərəncamla Məmmədəli Ağayevin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edildiyini bir daha bildirdi və ordeni ona təqdim etdi.



Bir çox dövlət mükafatlarına layiq görüldüyünü qeyd edən Məmmədəli Ağayev Azərbaycan Respublikasının "Dostluq" ordeninin onun üçün xüsusi dəyər daşıdığını bildirdi. Otuz səkkiz ildir Moskvada yaşadığını vurğulayan Məmmədəli Ağayev bildirdi ki, bütün ömrünü teatr sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının möhkəmlənməsi işinə həsr edib və bundan sonra da Rusiya-Azərbaycan mədəni əlaqələrinin yüksək səviyyədə olması üçün səylərini əsirgəməyəcək.

Məmmədəli Ağayev dövlətimizin başçısına qarşıdan gələn prezident seçkilərində uğurlar arzuladı.

Sonda xatirə şəkli çəkdirildi.

04-05 (99-100) 10 mart 2018-ci il

AZƏRBAYCAN VETERANI

# Veteranlarımız gənclərin Xocalı soyqırımı ilə bağlı məlumatlandırılmasına xüsusi diqqət göstərirlər



Xocalı faciəsi XX əsrin ən qanlı soyqırımlarından biridir. Ermənistan silahlı qüvvələrinin keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının köməyi ilə dinc əhaliyə qarşı törətdiyi qanlı qırğın nəticəsində 613 nəfər qətlə yetirilib, 1275 nəfər əsir götürülüb, 197 nəfər itkin düşüb. Yalnız bir gecədə Xocalı şəhəri Yer üzündən silinib. Xocalı soyqırımına ilk dəfə siyasi-hüquqi qiymət məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib.

Bu fikirlər Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar fevralın 23-də Respublika Veteranlar Təşkilatında veteranların, ziyalıların, gənclərin iştirakı ilə keçirilən anım tədbirində səsləndirilib.



Respublika Veteranlar Təşkilatının əməkdaşları, İkinci Dünya, Qarabağ müharibələri, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad edərək, "Ana harayı" abidəsi önünə tər çiçəklər düzüblər.



Təşkilatın inzibati binasında keçirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının, həmçinin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov tədbirdə çıxış edərək Xocalı soyqırımının xalqımıza qarşı törədilmiş faciələrin ən dəhşətlisi olduğunu bildirib. Qeyd edib ki, erməni vandallarının törətdikləri soyqırımı dünya tarixində ən amansız qətliamlardan hesab olunur. Günahsız dinc əhalinin, o cümlədən qocaların, qadınların, uşaqların vəhşicəsinə öldürülməsi erməni xislətinin əsl simasını ortaya qoyub. Bu isə əsl faşizm və cinayət əlamətləridir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli hadisəsi olan Xocalı soyqırımı ilə Azərbaycan xalqına vurulan mənəvi və psixoloji zərbənin ağırlığını bu gün də hər birimiz dərindən hiss edirik. Bu qətliamın dəhşətləri hər bir azərbaycanlının qəlbini sızladır.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qeyd edib ki, Xocalı soyqırımının dünyada tanıdılması, bu faciəyə lazımi qiymətin verilməsi üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində aparılan genişmiqyaslı fəaliyyət uğurlu nəticələrini verir. Bu baxımdan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işləri xüsusi vurğulamaq lazımdır. Məhz bu kampaniya nəticəsində hazırda dünyanın bir sıra ölkələri, həmçinin bəzi beynəlxalq təşkilatlar Xocalı qətliamının soyqırımı kimi tanınması barədə qərarlar qəbul edib. Ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı ilə bağlı abidələr ucaldılıb.

Diqqətə çatdırılıb ki, artıq beynəlxalq ictimaiyyət Xocalı faciəsi, torpaqlarımızın zəbt edilməsi ilə bağlı daha çox məlumatlıdır. Xocalı soyqırımı barədə həqiqətlərin müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində qaldırılması erməni faşizminin mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından da əhəmiyyətlidir. Bununla Azərbaycanın ərazi bütövlüyünün təminatı üçün mühüm əhəmiyyət kəsb edən beynəlxalq dəstəyin daha da güclənməsi təmin olunub. Azərbaycan dövlətinin, nüfuzlu ictimai təşkilatların inamla apardığı bu işə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız dəstək olmalı, Xocalı harayına öz səsini verməlidirlər.

C.Xəlilov vurğulayıb ki, Respublika Veteranlar Təşkilatının üzvləri gənclərlə görüşlərində onlara Xocalı soyqırımı, eləcə də Qarabağ müharibəsi ilə bağlı həqiqətləri çatdırırlar. Məqsəd gənclərin milli vətənpərvərlik ruhunda yetişməsi, işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olmalarıdır. Ötən ilin aprelində Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıqlar Silahlı Qüvvələrimizin bu şərəfli missiyanı həyata keçirməyə hazır olduğunu sübuta yetirib. Veteranların cəbhə xəttində əsgərlərlə görüşlərdə təcrübələrini bölüşməsi aprel döyüşlərində qələbənin qazanılmasına öz töhfəsini verib. Gənclərimizin vətənpərvərlik ruhunda yetişməsi torpaqlarımızın erməni işğalından azad ediləcəyinə inamımızı daha da artırır.



Tədbirdə çıxış edən digər şəxslər də Xocalı soyqırımının bəşəriyyət tarixində ən böyük faciələrdən biri olduğunu söyləyib, ermənilərin Xocalıda törətdikləri dəhşətli vəhşiliklərdən və qanlı cinayətlərdən danışıblar. Natiqlər Xocalı soyqırımına dünya ölkələri tərəfindən lazımi qiymətin verilməsi, beynəlxalq ictimaiyyətin faciə barədə daha geniş məlumatlandırılması işində hər bir azərbaycanlının fəal iştirakının vacibliyini qeyd ediblər. Ermənilərin törətdikləri bu faciənin heç zaman unudulmayacağı tədbirdə xüsusi vurğulanıb. Çıxışlarda Xocalının və işğal altındakı digər torpaqlarımızın azad ediləcəyinə, hərbi, iqtisadi, siyasi cəhətdən güclü dövlət olan Azərbaycanın ərazi bütövlüyünün tezliklə təmin olunacağına qəti inam ifadə edilib.

# Ağsaqqallar müdrikliyin, inkişafın, təcrübənin rəmzidirlər

Azərbaycan Ağsaqqallar Şurasının VII qurultayında təşkilatın fəaliyyəti, ağsaqqalların cəmiyyət həyatındakı rolu yüksək qiymətləndirilib.

Fevralın 27-də Azərbaycan Ağsaqqallar Şurasının VII qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, qurultayda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları və Şuranın üzvləri iştirak ediblər.

Şuranın sədri, Milli Məclisin deputatı Fəttah Heydərov tədbirdə iştirak etmək üçün seçilmiş 203 nümayəndədən 198-nin qeydiyyatdan keçdiyini bildirib.

Azərbaycanın dövlət himni səsləndirilib.

Sonra ulu öndər Heydər Əliyevin, eləcə də VI qurultaydan ötən dövrdə dünyasını dəyişmiş Şura üzvlərinin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qurultayın işçi orqanları seçiləndən sonra gündəlik təsdiq edilib, hesabat məruzəsi dinlənilib. Hesabat məruzəsi ilə çıxış edən Şuranın sədr müavini Bayram Yusifov diqqətə çatdırıb ki, Azərbaycan Ağsaqqallar Şurası hər zaman olduğu kimi, son beş illik fəaliyyəti dövründə də ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edərək Vətənimizin tərəqqisi naminə böyük səylər göstərib. Sıralarında respublikamızın müdrik ağsaqqallarını, o cümlədən dəyərli ziyalılarımızı, elm, mədəniyyət və incəsənət, ictimai-siyasi xadimləri birləşdirən Şura, onun rayon və şəhər təşkilatları hesabat dövründə fəaliyyətlərini daha da genişləndirib, Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və humanitar inkişafına, cəmiyyət həyatının müxtəlif məsələlərinin həllinə böyük töhfələr veriblər. Xüsusilə yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində və maariflənməsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər.





Son beş il ərzində Azərbaycan Ağsaqqallar Şurası beynəlxalq əlaqələrinin genişlənməsinə də xüsusi diqqət yetirib. Ortaq tarixin, mədəniyyətin, müştərək dəyərlərin birləşdirdiyi xalqların təmsil olunduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurasına) üzv ölkələrin Ağsaqqallar Şurasının işində xüsusi fəallıq göstərən Azərbaycan Ağsaqqallar Şurası bu qurumun indiyədək keçirilmiş bütün tədbirlərində yaxından iştirak edib, Şuraya daxil olan ölkələr arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin inkişafına öz layiqli töhfəsini verib. Hesabat dövründə də Türkdilli Dövlətlərin Ağsaqqallar Şurasının Qəbələdə, Bişkekdə, Almatıda, İstanbulda, Astanada və digər şəhərlərdə keçirilən toplantılarında bu səmərəli fəaliyyət davam etdirilib. Əsasən türkdilli dövlətlərin mədəni-humanitar və digər sahələrdə əməkdaşlığının inkişafına xüsusi diqqət yetirilən bu toplantılarda ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə qurulması, diasporların fəaliyyətinin intensivləşdirilməsi, Şura üzvü olan ölkələrin Avropada artan islamafobiyaya qarşı birgə mübarizə aparması, Ortaq Türk Dünyası Tarixinin yazılması kimi bir çox məsələlərin həlli istiqamətində müzakirələr aparılıb.

Qurultayda çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev deyib ki, Ağsaqqallar Şurası ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə edən, onlara yol göstərən ağsaqqallardır. Təsadüfi deyil ki, Ağsaqqallar Şurası bir qurum kimi Azərbaycanda gərgin vəziyyətin hökm sürdüyü vaxtda yaranıb. Bu, təqdirəlayiq və məntiqli idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra təşkilat ölkənin ictimai-siyasi həyatında fəal və davamlı şəkildə iştirak etməyə başlayıb. Ümummilli Lider ağsaqqallara xüsusi ehtiramla yanaşır, onlara güvənirdi. Azərbaycan ağsaqqalları ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olunmasında böyük rol oynayıblar. Bu gün də ölkəmizin həyatında ağsaqqalların mühüm rolu var. Onlar Azərbaycanın ictimai-siyasi, elmi, mədəni həyatında fəal iştirak edirlər. Prezident İlham Əliyev müvafiq sərəncamları ilə Ağsaqqallar Şurasının üzvlərini xidmətlərinə görə mükafatlandırıb.





Ərəstun Mehdiyev əmin olduğunu bildirib ki, Azərbaycan ağsaqqalları bundan sonra da ölkəmizin ictimai-siyasi həyatında fəaliyyətlərini uğurla davam etdirəcəklər.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə ölkəmizdə ağsaqqalların ictimai-siyasi fəallığının təmin edilməsi üçün hər cür şərait yaradıldığını qeyd edərək deyib ki, onlar xüsusən gənc nəslin tərbiyəsində mühüm rol oynayırlar. Ağsaqqal institutu hamının daim hörmətlə yanaşdığı, öz məsləhətləri ilə cəmiyyətin idarəçiliyində yaxından iştirak edən bir institut olub. Bu gün də cəmiyyətimizdə ağsaqqallara, böyüklərə xüsusi ehtiram var.

Milli Məclisin səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov bildirib ki, Şura ictimai-siyasi hadisələrə diqqətlə yanaşır, bu proseslərdə fəal iştirak edir. Ağsaqqallar müdrikliyin, inkişafın, təcrübənin rəmzidirlər. Gənclər istedadlı, enerjili ola bilərlər. Amma nəsilləri birləşdirən bir əlaqə, gənc nəsil ilə bugünkü müdrik ağsaqqallıq arasında bağlılıq olmasa, tarazlıq pozular və cəmiyyətdə çalxalanmalar baş verə bilər.

Azərbaycanın sürətlə inkişaf etdiyini, əhalinin rifah halının yaxşılaşdığını vurğulayan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov diqqətə çatdırıb ki, bütün xalqımız kimi, ağsaqqallar da müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin onlara diqqət və qayğısını heç zaman unutmayacaqlar.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov, Gəncə şəhər Ağsaqqallar Şurasının sədri Xalid Qurbanov və digər çıxış edənlər Ağsaqqallar Şurasının beşillik fəaliyyətini yüksək qiymətləndiriblər.

Daha sonra Şuranın rəhbər orqanları seçilib.

Fəttah Heydərov açıq səsvermə yolu ilə yenidən Azərbaycan Ağsaqqallar Şurasının sədri seçilib.

Sonra qurultayın qətnaməsi oxunub.

Ona yenidən etimad göstərib bu vəzifəyə seçdiklərinə görə qurultay nümayəndələrinə minnətdarlığını çatdıran Fəttah Heydərov bildirib ki, ağsaqqallar bu gün Azərbaycan cəmiyyətində təkcə gənc nəslin tərbiyəsində, milli mənəvi dəyərlər sisteminin formalaşdırılmasında və qorunmasında deyil, eyni zamanda, ölkəmizin gələcək inkişaf strategiyasının müəyyənləşməsində də yaxından iştirak edirlər. Onlar gələcəkdə də bu sahədə fəaliyyətlərini səylə davam etdirəcəklər.

Bununla da Azərbaycan Ağsaqqallar Şurasının VII qurultayı işini başa çatdırıb.

# Bakıda “Xocalı şahidləri danışır” kitabının təqdimatı keçirilib

Fevralın 22-də Beynəlxalq Mətbuat Mərkəzində “Xocalı şahidləri danışır” kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, “Azərbaycan” qəzetinin nəşr etdiyi kitabda Xocalı soyqırımının şahidi olan insanların acı xatirələri əksini tapıb.

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, redaktoru “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, buraxılışa məsul Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, tərtibçisi isə “Azərbaycan” qəzetinin şöbə redaktoru İxtiyar Hüseynlidir.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun dəstəyi ilə nəşr olunub.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədovun moderatorluğu ilə keçirilən təqdimat mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Gəray Fərhadov çıxış edərək Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasətin ağır nəticələrindən danışıb.




Milli Məclis sədrinin müavini Bahar Muradova bildirib ki, bu gün təqdimatı keçirilən kitab vaxt gələcək ermənilərə qarşı ittiham zamanı istifadə ediləcək, onların çirkin əməllərini üzə çıxaracaq. Bu kitabda Xocalı soyqırımının şahidlərinin, işgəncələrə məruz qalan insanların çətinliklə danışa bildikləri yazılar yer alıb.

Bahar Muradova bu gün Azərbaycan həqiqətlərinin, xüsusilə Xocalı soyqırımı ilə bağlı faktların dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən də danışıb.

Milli Məclisin mədəniyyət komitəsinin sədri Rafael Hüseynov kitabda toplanan materialların önəmindən danışıb. O deyib ki, Xocalı soyqırımını törədənlər gec-tez mütləq öz layiqli cəzalarını alacaqlar.

Sonra “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov, Milli Məclisin deputatı Rafael Cəbrayılov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin Əlaqələndirmə Şurasının sədri Elçin Əhmədov, Xocalı sakini Mehriban Əliyeva çıxış edərək kitab haqqında fikirlərini bildiriblər. Çıxış edənlər Xocalı soyqırımının ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biri olduğunu qeyd ediblər. Vurğulanıb ki, bu gün Azərbaycan dövləti Ermənistanın cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görür və hər birimiz bu işlərdə yaxından iştirak etməliyik.

# Hədər getməyən illər

Şəhərimizin sakinləri arasında onun da öz yeri, öz izi var. Sadə geyimli, böyük və kiçiklə salamlaşmağı unutmayan, təmkinli addımlarıyla 80 illik ömrünün acılı-şirinli xatirələrini günümüzə qədər daşıyan Hüseynov Hüseynalı Muxtar oğlu. Özünü tərifləməyi, irəli verməyi, haqqında söz deyilməsini təvazökarlıq saydığından indiyə kimi barəsində mətbuatda yazı getməyib. Halbuki dediyinə görə o, uzun müddət "Qələbə" qəzetinin fəal ştatdankənar müxbirlərindən biri olub, ictimai iş aparıb.

...Bu günlərdə redaksiyamızın qapısı döyüldü. Qonağımız haqqında söhbət açacağımız Hüseynalı müəllim idi. 1938-ci ilin 22 fevralında Salyanda xarrat Muxtarın ailəsində dünyaya gəlib, iki bacının bir qardaşı olub. Atası o dövrün sözləri ilə desək, "Bron", yəni müharibə dövründə hərbi xidmətdən möhlət hüququ olsa da, II Dünya müharibəsi başlayandan bir müddət sonra könüllü olaraq cəbhəyə yollanıb. Təəssüf ki, minlərlə insanlardan biri kimi onun da ömrü 1942-ci ildə bitib. Ailəsinə döyüşlərdə itkin düşməsi barədə qara xəbər gəlib.

Azyaşlı uşaqlar 27 yaşlı Narıngülün öhdəsində qalıb. Ev xanımı olan gənc ana kolxoz işlərinə gedib, taxıl biçib-yığıb, müxtəlif işlər icra edib. Cəbhəyə yardım edənlərlə çiyin-çiyinə çalışıb. Kiçik Hüseynalı da həyatın ilk ağrı-acısını da onda hiss edib. Anasına köməkçi olub. Aclıq, səfalət ailəni min bir imtahana, sınağa çəksə də onların iradəsini qıra bilməyib.

Orta məktəb təhsilinə də bir neçə il gec başlayan Hüseynalı dərs əlaçısı olmuş, 1957-ci ildə 2 saylı orta məktəbi bitirərək o vaxt Salyanda fəaliyyət göstərən Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. Gündüz təhsil alan Hüseynalı dərsdən sonra axşamlar isə mədəniyyət evlərinin kənd kino qurğularında kassir işləmiş, bu ağır illərdə ayda 15 manat almaqla evə qazanc gətirmişdir. Xəstə anasını ağır işlər görməkdən qurtarmışdır. Texnikumda aqronom ixtisasına yiyələnən gənc mütəxəssis rayon tədarük müfəttişliyində müfəttiş vəzifəsinə işə qəbul edilmişdir. Çox erkən yaşlarından ictimai işə maraq göstərən gənc Hüseynalını 1963-cü ildə rayon komsomol komitəsinə təlimatçı vəzifəsinə irəli çəkirlər. Təhsilini davam etdirmək fikrində olan Hüseynalı 1965-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə daxil olaraq 1970-ci ildə bu təhsil ocağını uğurla bitirmişdir. Çox çəkmir ki, ona təmiz, əqidəli, məsuliyyətli və prinsipial olduğunu nəzərə alaraq rayon komsomol komitəsinin I katibi vəzifəsini etibar edirlər. Bu vəzifədə o, cəmi 2 il işləyib. Nədənsə, bu vaxta kimi də onu tanıyanlar böyük təvazökarlıqla "Komsomol Hüseynalı" deyə müraciət edirlər. O, isə həyatında rol oynamış Yunis, Əvəz, Yaqub, Lütvəli və başqa müəllimləri, rayon partiya komitəsinin I katibi işləmiş Aslan Hüseynovu, icraiyyə komitəsinin sədri Həzi Quliyevi, şəhər sovetinin sədri İsmayıl Səlimovu indi də minnətdarlıq hissi ilə xatırlayır. O, rayon partiya komitəsində 3 il çalışdıqdan sonra Dövlət Tədarük Müfəttişliyində kənd təsərrüfatı üzrə inspektor, Taxıl məhsulları kombinatında direktor müavini, Mexaniki suvarma idarəsində mühəndis vəzifələrində işləmişdir. 1981-ci ildən başlayaraq tam 5 il o, Salyan pambıqtəmizləmə zavodunun Qarabağlı pambıq qəbulu məntəqəsinin müdiri vəzifəsində işlədikdən sonra rayon Kənd təsərrüfatı idarəsində iqtisadçı kimi çalışmışdır.



1988-ci ildə Hüseynalı Hüseynov bir müddət rayon Kənd təsərrüfatı məhsulları satışı bazarında müdir işlədikdən sonra yenidən istehsalatda pambıqtəmizləmə zavodunun "Bəşirabad" pambıq qəbulu məntəqəsinin müdiri işləməli olur. Bu vəzifə onun əmək kitabçasının son sətirləridir.

Siyasi həyatda həmişə aktiv olan Hüseynalı müəllim ulu öndər Heydər Əliyevin siyasi kursunu ürəkdən dəstəkləyən insanlardandır. O, 1997-ci ildə Yeni Azərbaycan Partiyasının sıralarına daxil olub və öz əqidəsinə indi də sədaqətlə qulluq edir.

80 illik ömür salnaməsini vərəqlədikcə Hüseynalı müəllimin aldığı təltiflərlə, Fəxri fərmanlarla, medallarla tanış olduqca bir daha əmin olursan ki, o, yaşanan ömrü hədərə verməyib. Vətənini, müstəqil respublikasını ürəkdən sevib. Onun arxiv sənədləri arasında 1992-ci il 29 fevral tarixində Moskva şəhərinə, İsveç radiosunun beynəlxalq müxbiri P.Qusmana Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün faktlarla dolu etdiyi müraciətin mətni saxlanılır.

Hüseynalı Hüseynov müxtəlif məsul vəzifələrdə çalışmasına baxmayaraq, vaxtı ilə atasının inşa etdiyi mənzildə yaşayır. Burada həyat yoldaşı, tibb işçisi Elmira xanımla 4 oğlan, 1 qız böyüdüb tərbiyə etmişdir. Uşaqların hamısı ali və orta ixtisas təhsillidir. 80 yaşlı babanı isə ən çox sevindirən nəvələrdir. Onun 9 nəvəsi var. Onlardan 8-i - Rüfət, Günel, Pərvin, Elmira, Elvin, Muxtar, Gülnar və Hüseynalı 600 baldan yuxarı nəticə göstərərək elmin, təhsilin yolundadır. Nəvələrindən Rüfət və Günel ABŞ-da təhsil alır və yaşayır. Bir nəvəsi-Elvin isə Kiprdə oxuyur. Narıngül isə hazırda orta məktəbdə təhsil alır.

Həyat isə davam edir. Biz sinəsi xatirələrlə dolu həmkarımıza cansağlığı arzulamaqla ayrılırıq.

Rüstəm MƏLİKOV,
Salyan rayonunda nəşr edilən”Qələbə” qəzetinin
baş redaktoru

# Fətəli xan Xoyski

Daha çox söz-sənət dühalarının, mədəniyyət və elm adamlarının vətəni kimi tanınmış, bəşəriyyətə birbirindən nəhəng mütəfəkkirlər bəxş etmiş Azərbaycanın yetişdirdiyi qüdrətli dövlət və ictimai xadimlər də az olmayıb. Belə şəxsiyyətlər arasında 14 yaşında ikən Səfəvilər kimi böyük bir dövlət yaratmağa girişmiş və qısa müddətdə buna nail olmuş, yenilməz sərkərdə, uca hökmdar Şah İsmayıl Xətainin adını çəkmək kifayətdir. Dövlətçilik ənənələrinin kökü eramızdan əvvələ gedib-çıxan, bu tarixi gələnəklərə dayaqlanaraq türk Oğuz elinin mükəmməl idarəçilik sistemini yaratmış və onu "Kitabi Dədə Qorqud kimi bütün zamanların ən yaşarı söz-sənət abidələrindən sayılan bir dastanda tərənnüm etmiş bu günkü Azərbaycan xalqı XX əsrdə Şərqdə ilk demokratik respublikanın qurucusu olmaqla dövrünün ruhuna uyğun, müasir dövlət qurmaq qüdrətini bir daha təsdiq etdi. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti neçə min illik mədəniyyətə, zəngin dövlətçilik ənənələrinə malik bir xalqın dünya sivilizasiyasına bəxş olunmuş ən dəyərli töhfəsi idi və onun yaradılmasında yaxından iştirak etmiş şəxslər arasında zəmanəsinin sayılıb-seçilən siyasətçiləri, dövlət və ictimai xadimlərindən heç bir səviyyədə geri qalmayan, bəzən onlardan da yüksəkdə dayanan, hər bir millətin iftixar duyacağı nadir simalar vardı. İlk müstəqil respublikanın Nazirlər Şurasının birinci sədri, məşhur əsl-nəcabətli Xoyskilər nəslinin ən yüksək mənsəbə çatmış nümayəndəsi Fətəli Xan Xoyski bu şəxsiyyətlərin ön sırasında yer tutur. Fətəli Xan Azərbaycanda hökumət qurmağın, Nazirlər Şurasına rəhbərlik etməyin nə demək olduğunu öz fəaliyyəti ilə əyani surətdə göstərən, bu sahədə praktik işin təməl daşlarını qoyan bir dövlət xadimidir. Fətəli Xan Xoyski 1918-ci ilin 28 mayından 1919-cu ilin 14 aprelinə qədər dalbadal üç dəfə ona etibar olunmuş ən şərəfli vəzifənin öhdəsindən layiqincə gəlmiş, son dərəcə mürəkkəb və ziddiyyətli şəraitlərdə Azərbaycan hökumətini təşkil etmiş və onun sədri olmuşdur. 1920-ci ilin məlum aprel çevrilişinə qədər öz müstəqilliyini qoruyub saxlamış Azərbaycan dövlətinin 23 aylıq bir müddətdə siyasi, hərbi, iqtisadi, beynəlxalq sahələrdə qazandığı uğurlarda onun çox böyük zəhməti, danılmaz xidmətləri vardır.

Mən Fətəli Xan haqqında ilk məlumata mərhum tədqiqatçı Mövsüm Əliyevin "Odlar yurdu qəzetinin 1989-cu il 1-ci sayında dərc edilmiş məqaləsində rast gəlmişdim. Sonralar həmin məlumat "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920 (Bakı "Gənclik 1990) kitabçasına salınaraq bir daha geniş oxucu kütləsinə çatdırıldı.

"Fətəli xan İskəndər oğlu Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi. Fətəli xangilin əsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Xoy xanı olan ulu babası Cəfərqulu xan İran şahı Fətəli xan ilə müharibədə məğlub olduqdan sonra, 20000 nəfərlik qoşunu ilə Üçkilsəyə (Eçmiədzinə) sığınmışdı. 1803-1806-cı illər Rus-İran müharibələri dövründə rus qoşunlarına qoşulan Cəfərqulu xan imperator I Aleksandr tərəfindən bahalı brilyantla bəzədilmiş qızıl medal və lələklə təltif edilmişdir. O, 1807-ci ildə Şəki xanı təyin edilmiş və general-leytenant rütbəsinə layiq görülmüşdür. Cəfərqulu xan 1810-cu ildə vəfat etdikdən sonra Şəki xanlığını onun oğlu İsmayıl idarə etmişdir. 1819-cu ildə İsmayılın vəfatı ilə Şəki xanlığı ləğv olunmuş və Rusiyanın tərkibinə qatılmışdır. Bu nəsildən görkəmli sərkərdələr, dövlət xadimləri və çoxlu ali təhsilli ziyalı çıxmışdır.

Fətəli xan Xoyski Gəncə klassik gimnaziyasını bitirmiş, əvvəlcə Gəncədə, sonra isə Suxum və Batum dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmiş və Kutaisidə dairə məhkəməsində böyük məhkəmə məmuru olmuşdur. 1900-cu il martın 8-də Kutaisi qəza istintaq sahəsinin müdiri, 1907-ci ildə isə Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilməsi Xoyskinin ictimai fəaliyyətində yeni mərhələ olmuşdur. O, Yelizavetpol quberniyasından (Gəncə) 2-ci Dövlət Dumasına nümayəndə seçilmişdir. Fevralın 2-də Peterburqun məşhur Tavriya sarayında toplanan Rusiya parlamentinin iclaslarında çıxış edən Fətəli xan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid atəşinə tuturdu. O, kadet partiyasının üzvü olmasına baxmayaraq, Dumanın müsəlman deputatları fırqəsinə daxil idi. F.Xoyski Rusiyanın müstəmləkə xalqlarına məhəlli muxtariyyət verilməsini hökumətdən tələb edirdi. Onun da iştirakı ilə hazırlanaraq 1907-ci il may ayının 18-də Dumaya təqdim olunan qanun layihəsində Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunması tələbləri səsləndirilmişdi. Demokratik normalara tam cavab verən bu qanunda Rusiyanın bütün vətəndaşlarının hüquq bərabərliyi, daimi yaşayış üçün yer seçmə azadlığı, şəxsiyyət toxunulmazlığı, mətbuat və söz azadlığı, təhsil hüququ və s. başlıca demokratik dəyərlər öz əksini tapmışdı. Ancaq ikinci Dövlət Duması vaxtından qabaq buraxıldığı üçün bu qanun layihəsinin qəbul edilməsi mümkün olmadı. Vətənə qayıdan Fətəli Xan Dairə Məhkəməsinə, Tiflis Məhkəmə Palatasına müraciət edərək, bu Məhkəmə Palatasına andlı iclasçı qəbul olunmasını xahiş etdi. Bu xahişi nəzərə alan ədliyyə nazirliyinin ikinci departamenti Fətəli Xan Xoyskini Tiflis Məhkəmə Palatasının andlı iclasçıları sırasına qəbul olunmasına icazə verdi. O, sonralar müxtəlif illərdə Bakı və Gəncə dairə məhkəmələrində iş kəsmək üzrə andçı-müvəkkil vəzifəsini icra etmişdir. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə şəhəri və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Respublikasının pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdır.

F.Xoyski (1875-1920) haqqında növbəti məlumatlardan biri "Azərbaycan Cümhuriyyəti sənədlər və materiallar 1918-1920-ci illər ("Elm, 1998) məcmuəsində, aşağıdakı şəkildə verilib: "AR-in dövlət xadimi. Azərbaycanın əsilli ailələrindən birinin nümayəndəsi. Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirib (1901). İkinci Dövlət Dumasına üzv seçilib (1907). Kadet partiyasının üzvü olub. Məhkəmə orqanlarmda xidmət edib. 1917-ci ilin martında Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilib. (Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi 1917-ci ilin 27 martında Bakıda yaradılmışdı - L.Ş.) Zaqafqaziya Seyminin üzvü (Zaqafqaziya Seymi Rusiya Müəssislər Məclisinin buraxılmasından sonra onun üzvlərinin Tiflisdə toplaşıb 1917-ci ilin dekabrında yaratdıqları qurumdur. Məclisdə müsəlmanların sayı 14, Seymdə isə 44 nəfər idi. Gürcülər Seymdən ayrılanda Zaqafqaziya Müsəlman Şurası 26 mayda özünü Azərbaycan Milli Şurası elan etmişdi. - L.Ş.) və Zaqafqaziya Federativ Respublikasının Ədliyyə naziri olub. 1918-ci ilin mayından 1919-cu ilin martına qədər AR hökumətinə başçılıq edib. 1919-cu ilin dekabrından 1920-ci ilin martına qədər Xarici İşlər Naziri olub. 1920-ci ilin 28 aprelindən sonra Tiflisə gedib. 1920-ci il iyunun ayının 19-da muzdlu qatilin əli ilə öldürülüb.



Bu qısa tərcümeyi-hal qeydlərinin arxasında ilk baxışda görünməyən, adi rəqəmlərin daxilinə sinmiş potensial güc, yaşanmış hər bir ilin neçə on ilə bərabər siqləti haqqında düşünəndə insanı heyrət bürüyür. Belə az müddətdə bir millətin tərəqqisi və özünütəsdiqi yolunda görülmüş saysız-sonsuz işlər, göstərilmiş əvəzsiz xidmətlər qarşısında qəlbin riqqətə gəlir. Sözsüz ki, bolşevik rejimi bu qüdrətindən xəbərdar olduğu üçün Fətəli Xanın yaşayış yerini müəyyənləşdirməyə nail olmuş və çevrilişdən heç iki ay keçməmiş öz muzdlu qatilini tez-tələsik onu aradan götürməyə göndərmişdi. Çünki belə əməl və nüfuz sahibləri durduqca müstəqil Azərbaycan uğrunda çarpışmalar səngiməyəcək, ən amansız cəza tədbirləri qarşısında da öz gücünə inandırılmış xalq qorxub geri çəkilməyəcəkdi. Buna görə də bolşevik hakimiyyəti Fətəli Xan kimi şəxsiyyətlərin məhv edilməsi, yaxud mühacirətə getmək məcburiyyəti qarşısında qoyulması ilə xalqı rəhbərlərdən təcrid etmək, asan idarə olunan kütləyə çevirmək niyyətində idi.

Əsrin əvvəllərindən etibarən siyasi fəaliyyətə qoşulan, demokratiya və azadlıq şüarları ilə çar Rusiyasını titrədən qüvvələrin tərkibində ilk təcrübə qazanan Fətəli xan hələ o dövrdə öz yolunu qəti müəyyənləşdirməsə də, bir şey onun üçün gün kimi aydın idi. O, canından artıq sevdiyi millətinə təmənnasız xidmət göstərmək amalı ilə yaşayırdı. Əsrin əvvəllərində yüksək təhsil görmüş bu gənc hüquqşünas onu qarşıda gözləyən taledən xəbərdar deyildi. Tale isə ona millətinin tarixində əbədi yaşamaq qisməti yazmışdı. Ancaq bunun üçün o, neçə-neçə sərt sınaqlardan keçməli, özünü həyatın keşməkeşlərində təsdiq etməli idi. Bütün bunlar hələ gələcəkdə baş verəcəkdi. Bəli, tale onu xalqının istiqlalı uğrunda fədakarlıqla çalışmaq, yüz ilə yaxın bir müddətdə Rusiyanın tərkibində müstəmləkə ucqarı kimi alçaldıcı bir addan başqa heç nə əldə etməyən doğma Azərbaycanı tərəqqi və inkişafa qovuşduracaq insanların cərgəsində öz layiqli yerini tutmaq üçün seçmişdi. Yeri gəlmişkən, bəzi müəlliflər Fətəli Xanın fevral burjua inqilabından sonra siyasi mübarizəyə qoşulduğunu bildirirlər, ancaq onun 1907-ci ildə Dövlət Dumasına üzv seçilməsi və təqribən həmin illərdə Kadet partiyasına daxil olması bu qənaətlərin doğru olmadığını göstərir.

Məhkəmə orqanlarında çalışan Xoyskinin əksər dost-tanışlarından siyasi fəaliyyətlə məşğul olanlar, çar hökumətinin nəzərində siyasi cəhətdən səbatsız, hətta təhlükəli hesab olunurdu. O isə artıq öz fəaliyyətini heç bir partiyanın üzvülüyü ilə məhdudlaşdırmaq istəmir, müstəqil siyasətçi kimi formalaşmağı daha üstün tuturdu. Ancaq Kadet partiyasının üzvü olanda da, fevral-burjua inqilabından sonra heç bir partiyaya mənsub olmadan fəal surətdə siyasətə girişəndə də o, daim diqqət mərkəzində idi. Təsadüfi deyildi ki, o dövrdə ən qatı millətçilər sayılan qüvvələr öz fəaliyyətini hansısa siyasi mənsubluq çərçivəsinə salmaq istəməyən Fətəli Xanla tam hesablaşır, onu öz sıralarına cəlb etməyə çalışır, keçirdikləri tədbirlərdə məmmuniyyətlə söz verir, fikirlərini dinləyirdilər. Belə tədbirlərdən birində, 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən "Türk ədəmi-mərkəziyyət partiyası "Müsavatın birinci qurultayında çıxış edən Fətəli xan burada irəli sürülən "Azərbaycana muxtariyyət şüarını qızğın müdafiə etmişdir. Yenə 1917-ci ildə Bakıda çağrılan Qafqaz müsəlmanlarının qurultayında iştirak edərək milli problemlər ətrafında geniş diskussiya aparmışdı. Onun Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin və Zaqafqaziya Seyminin üzvü seçilməsi məhz bu qızğın fəaliyyətin, Azərbaycanın taleyini düşünən milli qüvvələr arasında ən yüksək nüfuza malik şəxsiyyətlərdən olmasının nəticəsi idi...

*Lətif Şükürüoğlu*

*Ardı növbəti sayımızda*

AZƏRBAYCAN VETERANI

# ŞARL de QOLL-AZƏRBAYCANIN DOSTU

Şarl de Qoll adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlərdən biridir. O, II Dünya müharibəsində alman faşizminə qarşı Müqavimət hərəkatına rəhbərlik etmişdir. 1944-1946-cı illərdə Fransada yaradılmış müvəqqəti hökumətin rəhbəri olmuşdur. Qoll 1959-1969-cu illərdə Fransanın prezidenti kimi yeni Respublikanın formalaşmasında həlledici rol oynamışdır.

General Şarl de Qoll 2-ci dünya müharibəsində Fransada alman faşistlərinə qarşı vahid partizan hərəkatına rəhbərliyi zamanı bu tərkibdə fransızlarla bir cəbhədə düşmənlə vuruşan həmyerlimiz Əhmədiyyə Cəbrayılovla tanış olur və bu tanışlıq sonradan əsl millətlərarası dostluq nümunəsinə çevrilir.

Əhmədiyyə Cəbrayılovun xatirələrindən: “Mən bəstəboy, arıq bir oğlan idim. Partizanlara qoşulandan sonra aylarla onlar məni sınadılar. Saysız-hesabsız əməliyyat tapşırıqlarına gedərək, get-gedə partizanların rəğbətini qazanmağa nail oldum. Həmişə başıma fransız kepkası qoyardım ki, sadə fransızlardan seçilməyim”. Məhz elə o vaxtlar Ə.Cəbrayılov bütün sənədlərdə fransızlara aid olan adla- Armed Mişel adı ilə adlanır. Əhmədiyyə Cəbrayılov 1944-cü ildə Paris şəhərinin azad olunmasında da fəal iştirak edir. Elə həmin döyüşlər zamanı general Şarl de Qolla görüşür. Hücum əməliyyatlarının birində Əhmədiyyə Cəbrayılov komandiri Şarl de Qola döyüş taktikasından məsləhət verərək, onun çox da irəli atılmamasını məsləhət görür və deyir : “Sən keç arxaya və özüm qabağa keçdim. De Qoll dedi ki, niyə belə edirsən? Cavab verdim ki, əgər səni vursalar bütün Fransa partizanları, müqavimət hərakatı başsız qalacaq, əgər məni vurası olsalar, heç bir qorxusu yoxdur”. Döyüş əməliyyatları uğurla nəticələnir, partizanlar ardıcıl qələbələr qazanırdılar. Günlərin birində Şarl de Qoll Əhmədiyyə Cəbrayılovla qan qardaşı olmaq, bir-birlərini heç vaxt unutmamaq, dostluqlarını əbədiləşdirmək qərarını bildirir və hər ikisi barmaqlarını çərtib qanlarını qarışdırırlar və necə deyərlər bizim dədə-baba adətiylə olurlar qan qardaşları. Şarl de Qoll tutduğu mövqelərinə baxmayaraq azərbaycan oğlu Əhmədiyyə ilə həmişə əlaqə saxlayır və öz dostluğuna sonadək sadiq qalır. Hətda Müvəqqəti Fransa hökumətinin Prezidenti olan Şarl de Qoll paris şəhərinin azad olunması münasibətilə 1944-cü ilin avqust ayında təşkil etdiyi banketə Əhmədiyyəni də dəvət edir. Bu görüşü təsdiq edən fotoşəkil də vardır. Şarl de Qoll II Dünya müharibəsi Qələbə ilə başa çatandan sonra azərbaycanlı dostu Əhmədiyyə Cəbrayılovun Vətənə- doğulduğu Şəki ( o vaxtkı Nuxa) rayonuna dönmək istədiyini öyrənir. Əlbətdəki, müharibənin ən ağır günlərinin dostundan ayrılmaq istəmir. Ona ən yüksək məqamları- mal-mülk, gözəl həyat şəraiti, bir sözlə, ürəyi istəyən hər şeyi edəcəyini bildirir. Lakin ürəyi Vətən eşqi ilə coşan Əhmədiyyəni yola gətirə bilmir. Beləliklə, öz dostu Əhmədiyyəni təntənəli şəraitdə yola salır.



Mən Əhmədiyyənin başına SSRİ-yə o vaxtlar bütün sovet xalqının Vətəni sayılan məkana qayıdandan sonra nələr gəldiyindən yazmaq istəmirəm, çünki belə həyat yoluna qələbə ilə qayıdan bir çox döyüşçülərimiz məhkum edilmişdilər və tarix özü hakimlik edib sonradan çoxlarının üzərlərindən “ Vətən xaini” damğası götürülərək bəraət aldılar. Amma çoxları bunu görmədilər, çünki artıq onlar dünyalarını dəyişmişdilər.

Mənim bu yazını qələmə almaqda məqsədim sonradan Fransız xalqının böyük oğluna çevrilən, Fransa respublikasının ideya yaradıcısı general Şarl de Qolun Vətəni Fransanın faşist əsarətindən azad olunmasında fəal iştirak edən bir çox azərbaycanlılardan biri olan Əhmədiyyə Cəbrayılovla ( sonradan Fransanın Milli Qəhrəmanı adına layiq görülür) ən ağır günlərdə bağladığı əhdi-peymana sədaqətli olmasını və sonradan bu dostluğun iki ölkə -Fransa və SSRİ arasındakı dostluğa töhfə verən siyasi məqamədək yüksəlməsini göstərmək istəyirdim. Əlbətdə bu barədə söhbətimiz polis veteranı Balakişi Abış oğlu Hüseynovla oldu. B.Hüseynov Əhmədiyyə Cəbrayılovla şəxsən tanış olduğunu və general Şarl de Qolla aralarındakı münasibətləri şəxsən onun özündən öyrəndiklərini bildirdi. Balakişi deyr : “Günlərin birində Ə.Cəbrayılovla yenidən görüşdüm. Söhbət əsnasında Əhmədiyyə kişi mənə başına gələn maraqlı bir əhvalat danışdı: “Balakişi, 1966-cı ilin yayı idi. Kəndin kənarında dayanmışdım, heyvanlara baxırdım. Birdən bir qara 21 Volqa yanımda dayandı və maşına minməyimi əmr etdi. Səbəbini soruşdum. Bildirdi ki, səni 1-ci katib istəyir. Mən çaş-baş qaldım, bir az qorxdum da. Axı “Vətən xaini” damğası üzərimdə idi. Birinci katibin yanında məlum oldu ki, Fransanın Prezidenti, partizanlıq dostum general Şarl de Qoll Moskvaya səfər edəcək və mənimlə görüşmək istəyir. Bəli, Balakişi müəllim, məni geyindirdilər, keçindirdilər və Moskvaya yola saldılar. Məni təmtaraqla qarşılayıb gətirdilər Sovet veteranları təşkilatına. Beləliklə, mən 20 iyun 1966-cı ildə fransız dostum Şarl de Qolla görüşdüm. Dostum mənim igidliyim, cəsarətim və dostluğa sədaqətim barədə sovet rəhbərləri ilə böyük görüşdə çox sözlər dedi. Hətta o da yadımda-dır ki, general Şarl de Qoll üzünü partiyanın Baş katibi Leonid Brejnevə tutub dedi : “Mən bu Azərbaycan oğluna görə, SSRİ ilə Fransanın yaxınlaşmasına qərar verdim". Əlbətdə onun bu sözləri sovet rəhbərlərini dəşhət dərəcədə hiddətə gətirdi. Az sonra mənim üzərimdən Vətən xaini damğası götürüldü və bəraət verildi. Onu da deyim ki, ay Balakişi müəllim, məni müharibədən sonra pis qarşılamaları, mənə vətəninə xəyanət edən şəxs kimi baxılması (bu münasibət çoxlarına qarşı edilirdi) ilk vaxtlar məni çox narahat edirdi, lakin mən öz əqidəmdən dönmədim. Həmişə öz qürurumu saxladım və inanırdım ki, ədalət gec-tez öz yerini tutacaq. Bunu da gördüm”.

Polis veteranı Balakişi Hüseynov bu həqiqətləri mənə çatdırarkən bir təklif də verdi: “Məmmədağa müəllim, mən sadə azərbaycanlı ilə sonradan Fransa Respublikasının Prezidenti olmuş general Şarl de Qolun sovet rəhbəri Leonid Brejnevlə geniş heyətdə rəsmi görüşündə bu dostluqdan danışması, bu dostluğa yüksək siyasi qiymət verərək, məhz buna görə də Fransa ilə SSRİ arasında dostluğa qərar verdim deməsi, bizi çox ruhlandırır. Mən istərdim ki, general Şarl de Qolun adı Azərbaycanda əbədiləşdirilsin. Məsələn, Bakı şəhərində parklardan, bağlardan və s. Ictimai yerlərdən birinə Azərbaycanın böyük dostu general Şarl de Qolun adı verilsin. Xahiş edirəm təklifimi Veteran Təşkilatında müzakirəyə çıxarın.” Mən veteranımızın bu təklifinə biganə qalmadım. Müzakirəyə çıxardıq və bir səslə veteranlarımız tərəfindən qəbul olundu. Zənnimcə böyük tarixi şəxsiyyət olan general Şarl de Qolun 2-ci Dünya müharibəsi illərində Fransanın azad olunması məqsədilə partizan hərəkatına qoşulmuş azərbaycanlı Əhmədiyyə Cəbrayılovla qan qardaşlığını qəbul edərək onunla ömürlük dostluq əhdi bağlaması və sonadək bu əhdə sadiq qalması xalqımıza verilən hörmətdir və buna bizim gərəkli qiymət verməmiz Fransa-Azərbaycan xalqları arasında dostluğun timsalı kimi əbədiləşdirməyə layiqdir. Masallının müharibə, əmək və Silahlı Qüvvələr veteranları adından biz təklifimizin qəbul olunmasını aidiyyəti hökumət strukturundan xahiş edirik. Hesab edirik ki, Alman faşizmi üzərində ikinci dünya müharibəsindəki tarixi qələbənin 73-cü ildönümünə gözəl hədiyyə ola bilər.

***Məmmədağa Şiriyev,***
***Masallı rayon Veteranları***
***Təşkilatının sədri***

# İkinci qrup müharibə əlili: Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı tezliklə azad edəcək

1992-ci ildə könüllü olaraq Ağdama yollandım. Sonra isə Şuşada Qarabağ könüllü müdafiə batalyonunun tərkibində ermənilərə qarşı vuruşmuşam. Çox təəssüflər olsun ki, o vaxtkı rəhbərliyin böyük səhvləri ucbatından Xocalı şəhərinin əhalisi tamamən köməksiz qaldı.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Xətai rayonundakı “Ana fəryadı” abidəsini ziyarət edən Suraxanı Rayon Veteranlar Təşkilatının sədri, ikinci qrup müharibə əlili Eldar Rüstəmov deyib.

Xocalıda igid oğullarımızın son damla qanınadək vuruşduğunu söyləyən həmsöhbətim deyib ki, bütün bunlara baxmayaraq təpədən-dırnağadək silahlanmış ermənilər şəhərə daxil olaraq yüzlərlə silahsız və köməksiz xocalılını qətlə yetirib.



“Biz hər il olduğu kimi, bu il də Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edirik. “Ana fəryadı” abidəsini, eyni zamanda, çoxsaylı gənclərimiz ziyarət edir. İndiki gənclərə demək istəyirəm ki, Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı tezliklə azad edəcək. Azərbaycan dövlətinin yüksək diqqət və qayğısından bəhrələnən gənclərimiz torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə tam hazırdırlar”, - deyə Eldar Rüstəmov vurğulayıb.

# QEYRƏTLİ OĞUL ZİRVƏSİ...



Müharibə hər bir hərbi qulluqçu üçün amansız döyüş sınaqları ilə üz-üzə qalmaq deməkdir. Cəsarət, iradə, mənəvi əqidə və döyüş qabiliyyəti olmadan bu ağır sınaqlar qarşısında tab gətirmək çətindir. Şəhid hərbi qulluqçularımızın döyüş yoluna nəzər saldıqda, onların timsalında məhz bu keyfiyyətlərin birləşdiyi döyüşçü şəxsiyyətini təsəvvürümüzə gətiririk. Döyüşçü döyüş taleli insan anlamını ifadə edən sözdür. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə neçə belə döyüşçü odlu səngərlərdə yetişdi və Vətənin müdafiəsində fədakarlıq göstərdi.

Daxili Qoşunların şəhid hərbi qulluqçusu əsgər İsgəndərov Əlisgəndər Əbdüləhəd oğlunun döyüş yolu doğma torpağa və xalqa sədaqət nümunəsidir. O, 1973-cü il iyulun 23-də Bakı şəhərində anadan olub. İsgəndərovlar ailəsində 4 qız, 2 oğul övladı dünyaya göz açıb. Əlisgəndər həm valideynlərinə, həm də qardaş və bacılarına çox qayğıkeş olub.

Əlisgəndər Bakının Nəsimi rayonundakı 5 saylı orta ümumtəhsil məktəbində 8 il oxuyub. Sonra Dərnəgül qəsəbəsindəki 4 saylı texniki-peşə məktəbində təhsil alıb. Burada motorçu-qaynaqçı ixtisasına yiyələnib. Ailə üzvlərinin dediyinə



görə, Əlisgəndər zəhmətkeşliyi ilə seçilib, öz peşəsində də bacarıqlı olub. O, hərbi xidmətə qədər Xəzər Gəmi Təmiri İstehsalat Birliyinin D.Bünyadzadə adına müəssisəsində öz ixtisası üzrə işləyib. Əmək kollektivində müsbət xarakterizə olunub.

1991-ci ilin dekabr ayında Əlisgəndər Nəsimi Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi Rayon İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Respublika Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına qəbul olunan ilk çağırışçıların arasında o da vardı. Daxili Qoşunların o vaxt tərkibində olmuş 6500 saylı hərbi hissədə (1993-cü ilin yanvar ayından Daxili Qoşunların tərkibindən çıxarılıb - Y.A.) hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Hərbi hissənin 3-cü bölüyündə atıcı vəzifəsində xidmət edib. Qeyd edim ki, 6500 saylı hərbi hissə öz təyinatı üzrə o dövrdə islah-əmək müəssisələri sistemində (hazırda penitensiar sistem - Y.A.) spesifik vəzifələr yerinə yetirib. Buna baxmayaraq, müharibə vəziyyəti olduğundan, hərbi hissədən müntəzəm olaraq döyüş bölgələrinə şəxsi heyət göndərilib. Əsgər kimi hərbi xidmət borcunu vicdanla yerinə yetirən Əlisgəndər özünün də ön cəbhəyə göndərilməsinə can atırdı. Hərbi hissədə formalaşdırılmış xüsusi dəstənin tərkibində Ağdam-Ağdərə döyüş zonasına o da ezam olunmuş, torpaqlarımızın müdafiəsində dayanaraq, ilk müharibə sınaqlarından ləyaqətlə çıxmışdı. 1992-ci ilin mart ayının 12-də Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşə başlamışdı. Həmin ilin iyun ayından etibarən döyüş zonasında şəxsi heyətin cəmləşdirildiyi hərbi hissələr formalaşdırılırdı.



Əsgər Ə.İsgəndərov 1992-ci ilin iyul ayında 6500 saylı hərbi hissənin birləşmiş hərbi dəstəsinin tərkibində Tərtər rayonuna göndərilib. Buradan isə Ağdərə istiqamətində düşmənlə təmas xəttindəki ön mövqelərimizin müdafiəsinə cəlb edilib.

Torpaqlarımızın müdafiəsində cəsur döyüşçü kimi mətinlik göstərib, düşmənə qarşı qisas və nifrət hissi ilə vuruşub. Vətənpərvər bir əsgər kimi barıt qoxulu səngərlərdə öz iradə və qətiyyətini nümayiş etdirib.

Əlisgəndərin döyüş yolunun son hissəsi Tərtər-Ağdərə cəbhə bölgəsində keçib. 1992-ci ilin iyul ayının sonu və avqust ayının əvvəllərində (28.07.- 07.08.1992-ci il) bu istiqamətdə şiddətli döyüşlər ara verməyib. Həm müdafiə, həm də hücum xarakterli bu qanlı döyüşlərdə onlarla şəhid olan, itkin düşən və yaralanan, kontuziya alan hərbi qulluqçularımız vardı. O gərgin şəraitdə həlak olmuş bəzi hərbi qulluqçularımızın ölüm tarixinin qeydiyyatında yol verilmiş xətaları başa düşmək olar. Tanış olduğum bəzi sənədlərdə Əlisgəndərin ölüm tarixi üst-üstə düşməsə də, ölüm haqqında şəhadətnaməyə və ölümün təsdiq edilməsi barədə müvafiq rəyin məzmununa əsaslansaq, o, 1992-ci il avqustun 5-də Möhrətaq kəndi (hazırda Kiçik Qarabəy adlanır, işğal altındadır-Y.A.) uğrunda gedən döyüşdə çoxsaylı qəlpə yaralarından həlak olub.

Ölüm haqqında şəhadətnamədə şəhidin meyitinin kəskin çürüməsi və yanması da qeyd edilib. Şəhid hərbi qulluqçumuz Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli Fərmanı ilə əsgər İsgəndərov Əlisgəndər Əbdüləhəd oğlu respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin olunmasında göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Fərmanı ilə təltif edilib (ölümündən sonra).

Paytaxtımızın Nəsimi rayonunda şəhidin ailəsi yaşayan binanın yerləşdiyi küçəyə onun adı verilib. Ancaq mən o ünvanda olarkən bu barədə bir lövhəyə rast gəlmədim. Halbuki, bununla əlaqədar Bakı Şəhər Xalq Deputatları Sovetinin Rəyasət Heyətinin (hazırda Bakı Şəhər İcra Hakimiyyəti) 19 mart 1993-cü il tarixli, 638 nömrəli qərarı var.

Əlisgəndərin şərəfli döyüş yolu barədə ötən illərdə respublikamızın ayrı-ayrı qəzetlərində məqalələr dərc olunub. 1997-ci ildə İ.Z.İsmayılovun müəllifi olduğu "Nəsimi rayonunun şəhidləri" kitabı işıq üzü görüb və bu nəşrdə də Əlisgəndər barədə yazı verilib.

2017-ci ildə dünyasını dəyişmiş Əlisgəndərin anası Nəcimə xanım son nəfəsinədək onun yoxluğu ilə barışmayıb.

Ahıl yaşında olan atası, ailənin digər üzvləri, onu yaxından tanıyanların, silahdaşlarının yaddaşında Əlisgəndər qeyrətli oğul kimi qalacaq.

Allah rəhmət eləsin!

Yalçın Abbasov
DİN-in Daxili Qoşunlarının
Veteranlar Şurasının katibi

# Xocalıya Ədalət

Xocalı soyqırımı XX əsrin ən dəhşətli və tarixdə görünməmiş qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı soyqırımı tarixdə bizə məlum olan Babi Yar, Xatın, Xirosima soyqırımları qədər amansız və dəhşətlidi.

22 fevral 2018-ci il tarixdə 42 nömrəli tam orta məktəbdə Xocalı faciəsinin 26-cı ildönümü münasibətilə "Dünya Xocalıya Ədalət" adlı tədbir keçirilmişdir. Tədbirdə əvvəlcə Xocalı şəhidlərinin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra məktəbin direktoru Şahsənəm Məmmədova 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə ermənilərin 366-cı moto atıcı alayının köməyi ilə törətdikləri Xocalı faciəsi haqqında məlumat vermiş, xatırlatmışdır ki, həmin gecə yüzlərlə soydaşımız



vəhşicəsinə öldürülmüş, şikəst edilmiş, itkin düşmüş, əsr aparılmış, şəhər tamamilə yandırılaraq yer üzündən silinmişdir.

Tədbirdə Sumqayıt şəhər Veteranlar Təşkilatının sədri Leyla Qasımzadə, təşkilatın sədr müavini Tamara Rufullayeva, Respublika Daxili Qoşunlar Veteranlar şurasının sədri polkovnik Çingiz Daşdəmirov, şəhər Təhsil şöbəsi veteranlar təşkilatının sədri Məşdi Zeynallı, Respublika Sabunçu rayon Veteranlar Təşkilatının sədri, Azərbaycan Yazıçılar İttifaqının üzvü, döyüşçü-şair Elşən Xəzər və başqaları Xocalıda erməni qəsbkarlarının xüsusi amansızlıqla törətdikləri misli görünməmiş qanlı cinayətdən, köməksiz əliyalın insanlara divan tutulmasından və şəhəri müdafiə edərək qəhrəmanlıqla şəhid olmuş xocalıların şücaətlərindən söz açdılar. Xocalı faciəsinin canlı iştirakçısı məktəbin fizika müəllimi Əmrah Hüseynov Xocalı faciəsi haqqında öz acı xatirələrini danışdı.

Sonda 42 nömrəli tam orta məktəbin V sinif şagirdlərinin hazırladıqları bədii kompozisiya göstərildi. Tədbirdə Xocalı haqqında şeirlər oxundu, səhnəciklər göstərildi, vətənpərvər mahnılar ifa olundu.

Məşdi Zeynalov
Sumqayıt şəhər Təhsil şöbəsi Veteranlar
Şurasının sədri

AZƏRBAYCAN VETERANI

# Daxili Qoşunların “N” saylı hərbi hissəsinin yaranmasının ildönümü qeyd olunub

Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Sumqayıt şəhərində yerləşən “N” saylı hərbi hissəsinin yaranmasının 29-cu ildönümü qeyd olunub.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə mərasim iştirakçıları hərbi hissənin ərazisində torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri qoyub. Sonra hərbi hissənin klubunda təntənəli tədbir keçirilib.

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni ifa olunub.

Hərbi hissə komandiri, mayor Emil Rüstəmov mərasim iştirakçılarına hərbi hissənin ötən illərdə keçdiyi döyüş yolu haqqında məlumat verib. Bildirib ki, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə hərbi hissənin şəxsi heyəti xüsusi şücaət və fədakarlıq nümunələri göstərib, Daxili Qoşunların ilk şəhidi, çavuş Hətəmxan Babayev və Milli Qəhrəman Ruslan Muradov da məhz bu hərbi hissədə xidmət ediblər. Horadiz sərhədyanı yaşayış məntəqəsinin və 12-dən artıq kəndin azad olunması ilə nəticələnən döyüşlərdə 19 nəfər şəhid olub, 3 nəfər isə itkin düşüb.

Sonra ildönümü münasibətilə şəxsi heyətə daxili işlər nazirinin müavini, Daxili Qoşunların Komandanının təbrik məktubu çatdırılıb.

Tədbirdə xidmətdə fərqlənmiş, yüksək peşə hazırlığı, nümunəvi intizam nümayiş etdirən hərbi qulluqçular mükafatlandırılıb.

Mərasimdə iştirak edən DİN Veteranlar Şurasının sədri, ehtiyatda olan polis polkovniki Fərhad Süleymanov çıxış edərək şəxsi heyətə öz təbriklərini çatdırıb, döyüş hazırlığı səviyyəsinin daim yüksək saxlamağı, nizam-intizama riayət etməyi tövsiyə edib.



Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik Çingiz Daşdəmirov və veteran, ehtiyatda olan polkovnik Əli Adıgözəlov ildönümü ilə əlaqədar şəxsi heyətə öz təbriklərini çatdırıblar.

Daxili Qoşunların nümunəvi hərbi orkestri şəxsi heyət qarşısında ədəbi-bədii kompozisiya ilə çıxış edib.

# Любил море и флотскую службу

Биография капитана 2 ранга в отставке Юрий Александровича Гритченко похожа на биографию многих тысяч его сверстников. Всю сознательную жизнь он добросовестно трудился. С юности увлеченно занимался спортом. В армейский строй стал без колебаний, физически и морально подготовленным к трудностям и невзгодам. Он был опорой во всем.

Мечтал стать военным моряком. Закончил Каспийское высшее военно-морское училище. Служил на боевых кораблях на Каспии, а затем в Генеральном штабе Азербайджанских Вооруженных Сил, а затем в военно морском училище. Участвовал в боевых действиях в Карабахе.

Любил жизнь, природу. Как трепетно и ответственно подходил к воспитанию дочерей, внука и внучки. Мечтал их вырастить. Не случилось....

Все чаше в их чертах - характере , в поступках, в отношениях к окружающим видел тот жизненный стержень, который даровал ребятам их дедушка. Коварная смерть вырвала его из наших рядов.

Своим патриотизмом, высокой физической подготовкой и добросовестной службой, инициативой, близостью к людям снискал заслуженный авторитет, уважение сослуживцев и друзей.

Ниже печатаются некоторые сохранившиеся документы из личного дела капитана 2 ранга в отставке Юрий Александровича Гритченко.

«За время пребывания в училищной роте матрос Ю.А. Гритченко показал себя дисциплинированным, честным комсомольцем. Требователен к себе, исполнителен, принимает активное участие в изготовлении наглядной агитации и выпуске стенгазет. Морально устойчив, политически грамотен, среди товарищей пользуется авторитетом ...»

«Курсант пятого курса Гритченко Юрий Александрович дисциплинирован и исполнителен. Политически грамотен. Делу Советской Родине и правительству предан. К выполнению своего воинского долга относится добросовестно. Военную тайну хранить умеет. В обращении с секретными документами аккуратен.

Может самостоятельно работать над изучаемым материалом .Учится удовлетворительно.

Активно участвует в комсомольской и общественной работе. Избирался редактором стенной газеты, председателем Совета ленинской комнаты. Хорошо рисует, пишет стихи, поет, играет на аккордионе и гитаре. Командные навыки хорошие, службу нарядов несет бдительно. Уставы Вооруженных Сил изучает и умело использует в своей практической деятельности. В строевом отношении подтянут, внешний вид опрятен, на замечания реагирует правильно и устраняет их свое временно....»

«За время нахождения в должности командира Б Ч -4 базового тральщика «Б - 178» Гритченко Ю.А. зарекомендовал себя подготовленным к выполнению своих обязанностей. Добился высоких результатов в службе, боевой и политической подготовке. Почти 70 процентов матросов и старшин боевой части отличники, а также специалисты 2 - го и 3- го класса. Состояние техники, вооружения хорошие Воинская дисциплина обеспечивает высокую боевую готовность.

Б Ч - 1-4 занимает на корабле ведущее место. Лейтенант Ю.А. Гритченко проявляет инициативу и отлично организовывает выполнение учебно-боевых задач. Специальная и военно-техническая подготовка хорошая, политически грамотный офицер. Глубоко изучает труды классиков марксизма- ленинизма, решения правительства. Активно выступает на семинарах и офицерских занятиях. Грамотно организует и руководит социалистическим соревнованием. Показывает примерность в воинской дисциплине. Общественные интересы ставит выше личных.

Любит военно - морскую службу и море. В плавании стоек и вынослив. Штормовую погоду переносит стойко. Пользуется авторитетом среди командования и личного состава.

Занимаемой должности командах Б Ч -1 - 4 соответствует. (Из служебной аттестации с 25 августа 1970 г. по 28 июня 1976 года) «Старший лейтенант Ю.А.Гритченко отлично подготовленный и дисциплинированный офицер. Обязанности помощника командира корабля, командира Б Ч - 1- 4 и службы выполняет образцово.

Политически подготовлен хорошо. Является руководителем группы политических занятиях, его группа получила хорошую оценку.

В своей практический деятельности опирается на комсомольскую организацию корабля. Специальная подготовка высокая, является специалистом 3-го класса.

Военные уставы знает и выполняет. В обращении с личным составом тактичен, вежлив. Поставленные учебно боевые задачи выполняет хорошо. Более половины личного состава является отличниками, классными специалистами, 58 процентов спортсменов разрядников...» (Из аттестации за период с 27 мая 1977 г. по 30 декабря 1979 г.) «Капитан - лейтенант Ю.А. Гритченко политически подготовлен хорошо. Занимается в вечернем университете марксизма-ленинизма при Доме офицеров. Успешно сдал экзамен за первый курс.



Дисциплинированный и исполнительный офицер. Волевые качества хорошие. Штурманская подготовка высокая. По занимаемой должности работает систематически.

Состояние дисциплины, содержание техники и качество ремонта гидр штурманского вооружения в мастерской удовлетворительное. Кроме своих основных обязанностей, постоянно руководит производственной практикой иностранных специалистов и курсантов.

С организационными вопросами справляется хорошо. Проявляет в этом деле наибольшие способности.

В обращении со старшими и подчиненными вежлив и тактичен. Пользуется в коллективе особым уважением ...»

Из аттестации на старшего инженера гидрографической штурманской мастерской.

«Капитан - лейтенант Ю.А. Гритченко имеет хорошую политическую подготовку. Закончил университет марксизма - ленинизма. На протяжении пяти лет руководит группой школы коммунистического труда рабочих и служащих. Добросовестно выполняет партийные поручения.

Проявляет требовательность к подчиненным. Дисциплинированный, исполнительный офицер.

Служебные обязанности исполняет добросовестно. Развито чувство ответственности за порученное дело. Любит работать с документами и исполняет их аккуратно.

В работе умеет определить главное направление. Проявляет инициативу и настойчивость при достижении поставленной цели. Вносит весомый вклад в наведении уставного порядка в части.

В сложной обстановке не теряется, обладает выдержкой.

Способен проявить твердость духа, стойкость волю, Умело воспитывать» (Из аттестации на старшего инженера гидрографический штурманской мастерской «Капитан 3 ранга Ю.А.Гритченко политически грамотен. Делу Родины и правительству предан. Идеологический уровень повышает самостоятельно. Является руководителем в группе. Дисциплинированный и исполнительный офицер. Служебные обязанности выполняет добросовестно, умело обучает офицеров по вопросам мобилизационной подготовки. На высоком уровне организовывает и проводит в жизнь все поставленные перед частью боевые задачи. Проявляет разумную инициативу. В сложной обстановке ориентируется быстро, действует решительно. Имеет хорошую специальную подготовку. Профессиональное мастерство повышает в системе командирской подготовки и самостоятельно. Достиг положительных результатов.

Пользуется большим авторитетом в коллективе. Постоянно требователен к работникам и вместе с тем, проявляет повседневную заботу о них.

Занимаемой должности вполне соответствует и достоин на повышенную должность...»

# Укрепляются дружеские отношения между Азербайджаном и Украиной!

27 января 2018 года в столице Украины городе Киеве прошла Конференция Международной Общественной Организации "Запорожское Казачество" (МОО КЗ).

На конференцию прибыли боле 120 маршалов, генералов, адмиралов, атаманов казачьих братств, казачества, Архиерей Украинской Православной Церкви Аугустин Митрополит Белоцерковский и Богуславский, Председатель Синодального отдела УПЦ по взаимодействию с Вооружёнными силами и другими военными формированиями Украины, председатель Синодальной Богословско-канонической комиссии УПЦ Адам Иванович Маркевич и руководители ветеранских организаций со всех областей Украины, а также из Польши, Азербайджана и других зарубежных стран.

Открывая конференцию со вступительным словом, известный во всем мире Верховный атаман Международной Общественной Организации "Запорожское Казачество" Украины и диаспоры Гетман маршал казачества Сагайдак Дмитрий Иванович сделал отчет, представив план действий и задачи на 2018 год.

С расширенным отчетом о проделанной работе в 2017 году выступил начальник штаба Международной Общественной Организации "Запорожское Казачество " маршал казачества Петр Чувасив.

Президент Международной Ассоциации «Союз Патриотов» при МВД Украины генерал–майор казачества Николай Григорьевич Калиник в своей речи рассказал о сотрудничестве руководителей ассоциации с братством казаков Запорожья и о планах по продолжению и расширению этого сотрудничества в будущем.

Затем в своем выступлении, представитель Гетмана Международной Общественной Организации "Запорожское Казачество" в Азербайджане. Как сообщил маршал казачества Узеир Вахабович, 15-23 декабря 2017 года находился с рабочим визитом в Азербайджане и провел встречу с общественностью Азербайджана. Он добавил что, в Азербайджане проживают свыше 250 тысяч русских, украинцев, белорусов, молдован и представителей других наций. Все народы, проживающие в Азербайджане находятся под постоянным вниманием и заботой Азербайджанского государства .

Среди них 1600 человек продолжают свою деятельность в организации «Казачи Землячество Азербайджана». Украинцы и казачьи землячества проявляя свою любовь к Азербайджану служили и служат в Национальной Армии Азербайджана, героически воевал в Карабахе за освобождение Азербайджанских земель от иностранных оккупантов. Двое из них получили звание Национального Героя Азербайджана и в городе Ленкоране в память о казачьем братстве воздвигнут памятник.

Затем на конференции было представлено слово приглашенному в качестве гости, Президента Фонда Инвалидов Воинов-Интернационалистов Азербайджанской Республики Сарраф Оруджов. Перед выступлением Сарраф Оруджовую Он приветствовал участников конференции от имени Азербайджанского народа и ветеранских организаций. Затем он выступил с подробным докладом отметив что, в 1988-1993 и 2016 годах в результате агрессии со стороны вооруженных сил Армении и поддерживающих ее государств, более миллиона Азербайджанцев (15% процентов в своего населения Азербайджана) стали беженцами и вынужденными переселенцами, было оккупировано 20 процентов исконных Азербайджанских территорий, 300 тысяч Азербайджанцев проживавших на территории Армении было изгнаны, 700 тысяч Азербайджанцев стали вынужденными переселенцами. В Указанные сроки погибло боле 30 тысяч Азербайджанцев, 50 тысяч стали инвалидами, 4853 человек был взять в заложники и подвергнуты нечеловеческим пыткам, и до сих пор о их судьбе ничего не известно.

Больше 26 лет международные сообщество безучастно наблюдать за этой несправедливой войной, и сегодня наши соотечественники проживающие в Карабахе ежедневно подвергаются опасности, в страхе под пулями и взрывами и неся потери. Сегодня на оккупированных Арменией территориях Азербайджана, вопреки международным законам проводиться политика ассимиляции, незаконное использование природных ресурсов, разрушение памятников истории, меняются названия населенных пунктов, исторических памятников, придумывают ложные истории о принадлежности этих территорий Армении.



Сегодня братский Азербайджанский народ и государство Украины столкнулось с аналогичной проблемой-несправедливой, кровавой войной, сопровождающейся с потерей земель, многочисленными людскими потерями и разрушениями. Сегодня по официальным данным в Украине проживают боле 45176 тысяч Азербайджанцев.

Сегодня в Украине, которая является одной из самых крупных государств интегрирующихся в европейское сообщество находящейся в центре интересов и Европы и СНГ, продолжается война на Донбасе и в Луганском регионе находящейся на юго-востоке Украины с простейшими боевиками, которая началась в апреле 2014 года и продолжается до сих пор, в результате бомбежек разрушены многие города и поселки, последствием этого явилось то, что, десятки тысяч граждан Украины спасая свои жизни вынуждены были бежать с родных очагов и превратилось в вынужденных переселенцев, погибло более 20 тысяч граждан Украины, тысячи граждан получив ранения стали инвалидами. Самым трагическим является то что, люди проживающие одну религию, 15 февраля каждого года в день вывод советских войск из Афганистана, ветераны Афганской войны из Крыма, Донбаса, Луганска и других регионов Украины, чтобы отметить этом день, сейчас оказались по разным сторонам баррикад и воюют друг с другом.

В результате продолжающейся войны на Донбасе погибло боле 220 воинов-афганцев, столько же погибло и с другой стороны. И сегодня продолжаются бомбардировки городов и поселков Донбасса, это приводит к каждодневным человеческим жертвам, люди под пулями и бомбежками в страхе за свою жизнь продолжают жить, ежедневно несут потери. Во время визита в Украину мы встречаемся с лидерами ветеранов Афганистана и влиятельными ветеранами войны, действующими в Киеве, Харькове, Хмельницкой, Черкасской и Луганской областях. Мы были свидетелями того, что их очень беспокоят военные конфликты в Донбассе.

Член Фонда Инвалидов Воинов-Интернационалистов Азербайджанской Республике как живые участники и свидетели как никто другой знают к чему приведет войны и поэтому поддерживают призыв, председателя Объединения Воинов-Интернационалистов Украины, национального Героя Украины, генерал–лейтената Червонописково Сергей Васильевича к воинам-афганцам воюющим на Донбассе с обеих сторон и военнослужащим о ввода в зону боевых действий с миротворческого военного контингента воинов-афганцев. Исходя из этого обращаемся, к ветераном организаций ветеранов военных действий, маршалам, генералам, адмиралам в зоне, проводящим свою деятельность в Азербайджане, крайне России к сотрудничеству с казачьими братствам для прекращения боевых действий и содействия миру в зоне конфликтов между Арменией-Азербайджаном в Карабахе, и в Украине на Донбассе, для чего содействовать проведению круглых столов, массовых мероприятий с участием общественности на территории Азербайджана, Украины, России и других зарубежных сторон для правильного освещения происходящих событий.

В заключении своего выступления Сарраф Оруджов призвал создать Фонд «Международный мир и дружба народов», для содействия прекращению боевых действий в конфликтных зонах во избежание человеческих жертв и разрушений.

Затем выступил Архиерей Украинской Православной Церкви Августин Митрополит Белоцерковский и Богуславский, Председатель Синодального отдела УПЦ по взаимодействию с Вооружёнными силами и другими военными формированиями Украины, председатель Синодальной Богословско-канонической комиссии УПЦ Адам Иванович Маркевич. В своей речи он особенно отметил, что Азербайджан всегда отличался толерантностью и религиозной терпимостью, отвечающей всем международным стандартам. «Азербайджан является многонациональным государством, в Азербайджане с мусульманами проживают люди исповедующие другие религии, Азербайджан являющейся независимым, демократическим государством, гарантирует всем своим гражданам независимо от национальной, расовой , религиозной, политической принадлежности полную свободу».

Когда в центра Европы мы еще видим религиозную нетерпимость, в Азербайджане христиане, евреи, мусульмане живут при полном взаимоуважении и в дружбе. Это толерантность, межрелигиозный диалог и сотрудничество стало результатом проведения правильной и справедливой политики лидера Гейдара Алиева. Сегодня это межрелигиозная политика продолжается Президентом Азербайджана Ильхамом Алиевым.

В своем выступлении в Августе Маркевич выразил глубокую сожаление по поводу многочисленных людских потерь и пожелал большой милости погибшим в Нагорном Карабахе.

В заключении Августе Маркевич поддержал идею Саррафа Оруджова по созданного Фонда «Международного мира и дружбы», которая помогла бы прекратить боевые действия и будет создан в мирных целях, предотвратив смерть тысяч людей в результате развития дружеских связей между Украиной, Азербайджаном, Россией и другими странами.

Идея создано в Фонде «Международного мира и дружбы», была подержана участниками конференции и было решено создании этого фонда.

Верховный атаман Украины и Диаспоры Гетман «Казачество Запорожье», маршал казачества Сагайдак Дмитрий Иванович был избран председателя организационного комитета Фонда «Международный мир и дружба народов», а Президента Фонда Инвалидов Воинов-Интернационалистов Азербайджанской Республике Сарраф Оруджов был избран заместителем председателя организационного комитета Фонда.

В заключении конференции Сарраф Оруджов, за заслуги укреплении дружбы между Азербайджаном и Украиной и за заслуги в миротворческой деятельности, который в результате военных конфликтов, препятствовавших тысячам людей осуществлять миролюбивые услуги был награжден орденам Украины «За верность традициям» I-ой степени и орденам «Звезда за доблесть и честь» I- ой степени Международной Ассоциации «Союза Патриотов» при МВД Украины.

Решением Международного Управления МОО "Казачества Запорожского" Сарраф Оруджов был назначен уполномоченным представителем Гетмана казачества Запорожского в Азербайджане и ему было присвоено звание генерал-майора казачества международного миротворческого контингента.

Пресс-служба Фонда Инвалидов Воинов-Интернационалистов Азербайджанской Республике

# Respublika Veteranlar Təşkilatında 8 mart - Beynəxalq Qadınlar Günü münasibəti ilə tədbir keçirilmişdir

Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov və sədr müavini polkovnik Cəlil Xəlilov 8 mart - Beynəxalq Qadınlar Günü münasibəti ilə Təşkilatın qadın əməkdaşlarını və onların timsalında bütün qadınları təbrik etmişdirlər. Təşkilatın qadın əməkdaşlarına qiymətli hədiyyələr təqdim edib, onlara ən xoş arzularını bildirdilər. Azərbaycanın dünyada qadın hüquq və azadlıqlarının təmin edilməsində ön sıralarda dayandığını diqqətə çatdırdılar. Hər bir Azərbaycan qadının respublikanın çiçəklənməsi və inkişafı naminə misilsiz xidmətləri olduğunu bildirdilər. Tofiq Ağahüseynov: "Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Eyni zamanda, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb"



Qadınlar Respublika Veteranlar Təşkilatı tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq ifadə etdilər.

Sonra birgə xatirə şəkili çəkdirildi.

# 69 yaşınız mübarək Zeyqəm Hüseynov

Zeyqəm Hüseynov 1949-cu ildə fevral ayının 24-də İrəvan mahalının Vedibasar rayonunun Şirazlı kəndində dünyaya göz açıb. 1976-1987-ci illər Zəngilan rayon Məhkəməsinin hakimi, 1987-1990-ci illərdə Füzuli rayon məhkəməsinin hakimi, 1990-2000-ci illərdə Xaçmaz rayon məhkəməsinin hakimi vəzifəsində işləyib. 2000-2007-ci illərdə Bakıda Ali Məhkəmənin hakimi vəzifəsind, 2007-ci ildən isə Sumqayıt şəhər məhkəməsinin sədri vəzifəsində çalışmaqdadır.

Həyatın keşməkeşli yollarında insanlar çox sınaqlara çəkilir. Bu böyük imtahandan hər kəs uğurla keçə bilmir. Bəs bunun siri nədir? Yəqin ki, taleyin qisməti əsas götürülür.

Hər kəsin öz xoşbəxtlik aləmi var, Zeyqəm Hüseynov isə ən çox xoşbəxtliyini həyatda xalqa yaxşı xidmət etməkdə, doğru-dürüst, namus, qeyrət və cəsurluqla yaşamaqda görür. Bu dünyanın ağrı-acısını və eyni zamanda şirinli günlərini yaşayanlardandır. Onun məğrur vüqarlı duruşu, mərdanə danışığı, tarixdən bizə bəlli olan Azərbaycan xalqının qəhrəman oğullarının hərəkətlərini xatırlayır. İnsanlar o vaxt yüksək tutulur ki, onu gördüyü işlər xalqına kömək etmiş olsun, qaranlığı işıqlandırsın.

İndiyədək çalışıb işlədiyi yerlərdə seçilib, sayılıb, ədalətli və gözəl əməllərinə görə xalqın hörmətini qazanmışdır.



İlahi sənin kamil bəndələrinin gözəlliyi haqq sözündür. Ömrünün müdrüklük çağlarında olan Zeyqəm Hüseynov hər şeydən əvvəl cəmiyyətimizin ən məsuliyyətli peşələrindən olan məhkəmə sistemində uzun illər ədalətlə işləmişdir. Gənc nəslin təlim tərbiyəsində xalq hakimi Zeyqəm Hüseynovun xüsusi xidmətləri olub.

Sizi həyatınızın ən əlamətdar günü 69 illik yubileyiniz münasibətilə veteranlarımızı adından səmimi qəlbdən təbrik edirik. Sizə həyatda möhkəm cansağlığı, uzun ömür, sevinc və səadət dolu illər arzulayırıq.

# Tərtər rayonunda Böyük Vətən müharibəsi veteranları daim diqqətdə saxlanılır.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Tərtər Rayon İcra Hakimiyyətinin, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları rayon təşkilatının nümayəndələri Böyük Vətən müharibəsi iştirakçılarının evlərinə gedərək onların problemləri ilə maraqlanıblar.

Tərtər Rayon Mərkəzi Xəstəxanasının nervpatoloq, okulist, terapevt, otorinolorinqoloq və digər ixtisaslı həkimlərdən ibarət xüsusi briqadası tərəfindən müharibə veteranları tibbi müayinədən keçirilib və lazımi dərman peraparatları ilə təmin edilib. Veteranlar göstərilən qayğıya görə minnətdarlığını bildiriblər.



Qeyd edək ki, Böyük Vətən müharibəsində 2417 tərtərli alman faşizminə qarşı igidliklə döyüşüb, onlardan 1079 nəfəri həlak olub. Hazırda rayonda dörd nəfər Böyük Vətən müharibəsi veteranı var.

**ELAN**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Bakı şəhəri, Yasamal rayonu, Mehman Bünyadzadə küçəsi, ev 255, mənzil 68-də yaşayan Haqverdiyev Adil İsmayıl oğlunun adına verilmiş qarajın sənədləri itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin

Nizami rayon Veteranlar Təşkilatının rəhbərliyi və kollektivi Fərhad Sadıxovun qardaşı
**Atamalı Sadıxovun**
vəfatından kədərləndiklərini bildirir. Mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə baş sağlığı verirlər.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*